*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2024, № 1*
*Səhifə: 139-145*
*https://doi.org/10.59849/2663-4406.2024.1.139*

*ISSN: 2663-4406*
*E-ISSN: 2709-2699*

# Elçinin yaradıcılıq yolu

**Dilarə Adilgil**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: adilova.@bk.ru

**Annotasiya.** Məqalədə "altmışıncılar"ın əsas nümayəndələrindən olan Elçinin ədəbiyyata gəlişi, yaradıcılıq xüsusiyyətləri barədə məlumat verməklə yanaşı, yazıçının fəaliyyəti, müraciət etdiyi mövzular, janrlar və toxunduğu problemlər açılır. Yazıçının hekayə, povest və kino yaradıcılığından ayrı-ayrılıqda bəhs olunur. Elçinin dramaturji fəaliyyətinə xüsusi yer verilmişdir. Başqa yazıçıların əsərləri ilə müqayisəli kontekstdə araşdırılır. Alimlərin tədqiqatlarına istinad edilir, seçilmiş sitatlar deyilən fikirləri qüvvətləndirir. Paralel olaraq ata Əfəndiyevlə oxşar və fərqli cəhətlərə də diqqət yetirilmişdir. Müəllifin fikrincə, müasirlik Elçin yaradıcılığının əsas cəhətidir və ona görə də aktuallığını qoruyub saxlaya bilmişdir.
**Açar sözlər:** yazıçı, hekayə, teatr, dram, xarakter

**Məqalə tarixçəsi:** göndərilib – 03.04.2024; qəbul edilib – 17.04.2024

# Elchin's path of creativity

**Dilara Adilgil**
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: adilova.60@bk.ru

**Abstract.** The article provides information about Elchin's arrival in literature and his creative features, who is one of the "sixties". The article describes the activities of the writer, the topics and the problems he touched uron. The writer's story, narrative, theater and cinema creations are discussed separately. A special place was given to Elchin's dramaturgical activity. The researches of scientists are referred to, selected quotes reinforce the called ideas. At the same time, similar and different aspects with father Efendiyev were also paid attention to. According to the author's opinion, modernism is a main feature of Elchin's creative work and in this regard it kept its relevance.
**Keywords:** writer, story, theatre, drama, character

**Article history:** received – 03.04.2024; accepted – 17.04.2024

## Giriş / *Introduction*

Qərbdə "Səssiz nəsil" adı ilə tarixdə qalacaq termin yayılanda, SSRİ-də bunun tam əksi olan "Altmışıncılar" cərəyanı start götürdü. Onlara "XX qurultayın övladları" da deyirdilər. "Estetik dü-

şüncənin inkişafında yeganə dövr olaraq fərqləndirilən" altmışıncıların parlaq nümayəndələrindən biri də – bu il 80 yaşını qeyd etdiyimiz Xalq yazıçısı, ədəbiyyatşünas alim Elçin Əfəndiyevdir. O, Azərbaycan "altmışıncılar"ının ən cavanı idi... Bu gün Elçin "son yarım əsrin ədəbi-ictimai hərəkatında öz yeri..., ölkəmizdə və onun hüdudlarından kənarda etiraf olunmuş nüfuzu və sanbalı" [1, s.160] olan qələm sahibidir.

Elçin mənim mütaliə dünyama nə vaxt, necə daxil oldu? Orta məktəbin orta siniflərində. Xatırladığım qədər "Ulduz" jurnalında çap olunmuş bu hekayə gənc qızın uğursuz məhəbbətindən bəhs edirdi. Maraqlıdır ki, hekayənin, surətlərin adı yadımda qalmasa da, bəzi detalları dəqiq xatırlayıram. Məsələn, qızın paltarını ütüləməsi, güzgünün qarşısında fırlanması... Elçin fraqment, detal ustasıdır. Deyildiyi kimi – "detal əsərdə həlledici rol oynamır... Həll edir". Mükəmməllik detalların məcmusudur. Necə deyərlər, dama-dama göl olar. Mənim Elçinlə yazıçı-oxucu tanışlığım o hekayədən başladı və bu günə qədər davam edir.

Erkən Elçin bir hekayəçidir. Hekayəyə 16 yaşından yol yoldaşlığı edən, onu heç tərk etməyən yazıçı bu kiçik janrda əvəzsiz nümunələr yaratmışdır. Onun hekayələrini poetikasına görə etüd də adlandırmaq olar. Ədəbi etüd bir qayda olaraq remarka və dialoqdan ibarət olur. Lakin Elçinin "lal" etüdündə belə, "roman tutumu, roman dərinliyi var" (*V.Bəhmənli*). Yazıçı özü bu fikirdədir ki, hekayə uğur qazanmaq istəyirsə, həyatdan gəlməlidir. Özünün bütün hekayələri həyatdan alınma, personajları sən, mən, bizik...

1970-ci illərdə Elçin, əsasən öz gənc müasirlərindən, onların həyat və məişətindən, məhəbbət və arzularından yazırdı. Bu onillik Azərbaycan üçün "gözəl dəyişikliklərlə" yadda qalmışdır. Ümumiyyətlə, müasirlik Elçin yaradıcılığının əsas cəhətidir. Və bu müasirlik "qocalmır". İdeologiyaya xidmət etmədiyi üçün zaman onun əsərlərinin əleyhinə işləmir, bu gün də elə həmin cür aktual olub vaxtdan ucada dayanır. "Elçin, güclü düşüncələrin, incə duyğuların və sarsılmayan sevgilərin yazarı" olub (*A.L.Benderoğlu*) oxucunu duyur, hiss edir, hər biri üçün yazır.

## Əsas hissə / *Main Part*

Abşeron motivlərinin onun yaradıcılığında özəl bir yeri vardır. Bu "motivlər" xüsusi yazı manerası ilə seçilir. Elçin Bakı mühitini yaxşı bilib, yaxşı da çatdıran yazıçı kimi tanınır. "Baladadaşın ilk məhəbbəti", "Baladadaşın toy hamamı", "Qış nağılı", "Talvar", "Bir görüşün tarixçəsi", "Dolça", "Toyuğun diri qalması" kimi əsərləri regionun spesifikasını müəllifin özünəməxsus baxışında, fərqli üslubunda təqdim edir. Çətini birini oxumaqdır... Ardı çəkib aparacaq. Bu hekayə-povestlər həm də, əsl yay əsərləri olub, elə yayda oxunmaq üçündür.

"Dolça", "Toyuğun diri qalması", "Bir görüşün tarixçəsi" əsərlərində mənəvi-əxlaqi problemlər qaldırılır. Meşşanlıq, əxlaqsızlıq ("Dolça"), bu günün təbiri ilə desək, şiddət, məişət zorakılığı, kifli düşüncələr ("Bir görüşün tarixçəsi"), mənəvi korluq, vaxtı boşuna xərcləmək ("Toyuğun diri qalması") kimi xüsusiyyətlər qamçılanır, Kələntər, Əminə, Mirzoppa, Zübeydə kimi şərəf və ləyaqətdən yoxsul ünsürlər yazıçının tənqid hədəfinə tuş gəlir. "Dolça"da iki ailə təsvir edilir, biri sürücü Ağababanın külfəti, o biri onun kirayənəşini bazarkom Bəşirin ailəsi. Sosial fərq, mənəvi eybəcərlik bu iki ailənin nümunəsində üzə çıxır, müqayisədə daha əyani görünür.

"Baladadaşın..." ardınca Elçin "Qış nağılı"nı yazır və bəlkə, özü də fərqinə varmadan Abşeron silsiləsini davam etdirir. Bu hekayənin ruhu bəzi məqamları ilə mənə yazıçının özünün də bəyənib "Mənim hekayə antologiyam"a daxil etdiyi hörmətli yazıçımız Salam Qədirzadənin "Xəzan yarpaqları" əsərini xatırladır. Hər iki hekayədə hadisələr bağ mövsümündən kənar cərəyan edir. Adından məlum etdiyi kimi, "Xəzan yarpaqları" payızda, "Qış nağılı" qışda. Hər iki hekayənin qəhrəmanları ahıl yaşında tək qalmış insanlardır ki, bütün mehirlərini bağa salıblar. "Kərim kişi pensiyaya çıxdığı vaxtdan, yəni on beş ildən bəri yaydan başqa, qalan aylarda hər gün, uzaqbaşı iki gündən bir Bilgəhdəki bağına gedirdi, meynələrə, əncirlərə, narlara qulluq edirdi, bostan salırdı, gül-çiçək





əkirdi, uzun sözün qısası, dədə-baba bağları ilə sidq-ürəkdən dostluq edirdi; bağ kişini başa düşürdü, kişi də bağın işinə yarayırdı" [5, s.151]. Bağda Kərim kişinin daha bir dostu var idi, Nabran. Kərim kişi küçüklükdən böyütdüyü bu ovçarkaya çox bağlı idi, eynən Ağababa kişi "komi-xantı" Dolçaya bağlı olan kimi.

Şair Çingiz Əlioğlu "Abşeronla vidalaşma" adlı poema yazmış, onu "Abşeronun insanları və təbiəti haqqında ən gözəl əsərlərin müəllifi" kimi Elçinə həsr etmişdi.

Ən çox bəyəndiyi insani keyfiyyətin "səmimiyyət" olduğunu söyləyən Elçinin qəhrəmanları təbii və səmimidir. Müəllif demokrat valideyn kimi surətlərin dinamikasına qarışmır, "xoşbəxt olmağın reseptini təklif etmir" (*V.Bəhmənli*), vəd vermir, "moral" oxumur, obrazı yükləmir, qəhrəmanlarına etibar edib tam sərbəst buraxır, onların "zamanın sınağından çıxacağına" ümid bəsləyir. "Bununla belə, Elçin bu haqda heç vaxt birbaşa mətnlə danışmasa da, müəllifin rəğbəti" [2, s.14-15] arzularını qəlbində dəfn eləmiş Məsməxanımın, Ədilənin, gecə-gündüz ailəsi üçün özünü fəda edən Ağabacının tərəfindədir. Məsələn, Mirzoppa müəllifin simpatiyasını qazansaydı, ona heç vaxt bu adı qoymazdı. Bizim ədəbiyyatda belə bir obraz varmı? Tam da olmasa, var. Mirzoppa mənim yadıma "Cəbhədən-cəbhəyə" romanındakı Çapıq Şəmsini salır. Özünün pis imicini qorumağı, amanın günüdür, birdən məhəllədə onu yaxşı tərəfdən tanıyıb dolayarlar – kimi natamamlıq kompleksləri ilə yanaşı, içməyi, davaları, arvadını incitməyi ilə... Amma fərq burasındadır ki, sonda Çapıq Şəmsi düz yola gəlir, "Mirzoppanın isə heç vaxt ağlı başına gəlməyəcək, heç vaxt adamlıqdan payı olmayacaq" [3]. Əgər kimsə sadə, "ilk baxışda uğursuz" adamlara tək-tək hallarda "bədii obraz pasportu verirdisə, Elçin Əfəndiyev bu adi insanları əsərlərinə dəstə-dəstə gətirdi" [12, s.7]. "Adi adamlar yoxdur. Adi adam ola bilməz", – deyərək humanist konsepsiyasını müdafiə edən yazıçı, bildiyim qədər buna görə qınanıb da...

Onun təhkiyəsini heç kimlə səhv salmaq, qarışdırmaq olmaz. Elçinin nəsrində bədiilik nəinki mətnə uduzmur, əksinə, onu daha da gözəlləşdirib sənətkarlığını artırır. Həm də, canlı orqanizm olan dili inkişaf etdirir. "Onun nəsrində özünəməxsus bir cazibə qüvvəsi vardır" [9, s.14]. Akademik Nərgiz Paşayeva yazır: "Elçinin üslubu Azərbaycan ədəbiyyatında analoqu olmayan tamam yeni bir bədii-estetik hadisədir" [3]. Bəzən cümlə üzvlərinin qrammatik cəhətdən bağlı olmaması nəinki əsəri korlamır, əksinə, mətnə "izyüm" verərək onu daha da gözəlləşdirir. "Abşeronda, lap kənarında bir kənd var idi və elə bil bu saat həmin kənd yer üzündə bircə kənd idi, çünki gün möhkəmcə şığıyırdı, hamı da gizlənmişdi evində-eşiyində, ins-cins yox idi və bu tənhalıq da daha təkcə bu kəndin tənhalığı deyildi, elə bil günün beləcə qızmarında bütün yer üzünün, kürreyi-ərzin tənhalığı idi" [5, s.116]. Bu təsvir hekayəyə sözlə çəkilən akvareldən savayı, həm də yazıçının əsərlərinin ruhuna çökən, qəhrəmanlarının qəlbinə hakim olan həzin tənhalığın bir nümunəsidir. Burada akvareli əbəs yerə xatırlamadım... Elçinin Abşeron silsiləsi Xalq rəssamı Səttar Bəhlulzadənin Abşeron etüdlərinin nəsr dili ilə tərcümanıdır. Hər iki sənətkar "ilham və natura ardınca Taiti adasına" getmir, onlar üçün "doğma xalqın həyatı, Vətən torpağı əsl ilham mənbəyi" olaraq qalırdı.

Kiçik sahil kəndlərinin, qəsəbələrinin özünəməxsus ab-havası, aurası olur ki, Elçin həmin atmosferi "Abşeron motivləri"nə köçürə bilmişdir. Lakin 90-larda bu "motivlərə" birdən-birə qaçqınlar daxil olur. Yarımadanın mənzərəsi yerli sakinlərə doğma olub ürəklərini açırsa, buralara sığınmış Şuşa qaçqınları üçün qəbuledilməzdir. Onları sanki soyuq sudan çıxarıb isti suya salıblar. "Bütün günü ruzi axtarışında Abşeronu dolaşır, gecə isə yuxularında doğma el-obalarını görürlər... İsti, boğanaq havada nəfəs ala bilmir, azca mürgüləyən kimi düşüncələrində Şuşanın yamyaşıl, zümrüdü mənzərələri canlanır" [2, s.14-15]. "Bayraqdar"da oxuyuruq: "Dünyanın ən qəmgin yerlərindən biri qəbiristanlıqdır, amma Bakıdan gələn və elektrik qatarı yolunun sağında... salınmış bu qəbiristanlıq həm də, yəqin dünyanın ən kasıb qəbiristanlığı idi" [6, s.249]. Qara 90-larda Abşeronun kəndlərində belə qəbiristanlıqlar peyda olmağa başladı. İndi hər kənddə nə qədər acı da olsa, kənd qəbiristanlığı ilə yanaşı, bir "qaçqın qəbiristanlığı" da var. Daha burada qaçqınçılığın təzə vaxtlarında olduğu ki-

mi "23 qəbir" yoxdur, qəbir qazmağa yer tapılmır. Yazıçı Abşeron mövzusunu yaradıcılığı boyu "diri" saxlayır, elə yaxın pandemiya dövründə yenidən bu mövzuda hekayələr yazmışdır.

Şəxsən mənim, Elçinin ən sevdiyim əsəri "Ox kimi bıçaq" povestidir. Yəqin burada subyektiv səbəblər də olmamış deyil. Dedektivi bir janr kimi sevdiyimdən, əsərin əsasında film çəkilməyindən dolayı... Necə deyərlər, görüntü daha cəlbedicidir və yadda qalır. Bu əsəri yeni oxuyanda onu öz aləmimdə "ekranlaşdırmışdım". Bir müddət keçəndən, povest həqiqətən ekranlaşdırılandan sonra, təəccübümün həddi-hüdudu yox idi. Çünki rejissor Arif Babayevdən qabaq rolları aktyorlara mən "paylamışdım". Hamısı düşündüyüm kimi idi. Şahmar Ələkbərovu müstəntiq, Yusif Vəliyevi Qurd Cəbrayıl obrazında "görmüşdüm". Əgər Adil İskəndərov istisnasız "yüz otuz kiloluq" qoca prokuror roluna yaraşırdısa, o dövrdə lirik-romantik obrazlar yaradan Amalya Pənahovanı vağzal bufetçisi kimi görməyim indi özümə də əcaib gəlir... Yəqin ki, mənim "əsərim" olduğundan, bütün varlığımla içinə daxil olduğuma görə, bu cür maraqlı üst-üstə düşmələr alınmışdı... Mövzu həyatdan, ssenari bədii ədəbiyyatdan gələndə ekran həlli belə uğurlu alınır. Amma... cinayətkarı tapa bilməmişdim. Adətən, 10 dəqiqədən sonra caninin "izinə düşən" mən, Fəttah dayıdan heç şübhələnməmişdim. Keçmiş quldur ad-soyadını dəyişib özünü gözətçi, ocaqçı, süpürgəçi kimi identifikasiya etmiş, bununla da, uzun illər inkoqnito qalaraq cəzadan yaxasını qurtarmağı bacarmışdı. Yazıçı özü əsəri "Xeyirlə Şərin mübarizəsi" adlandırır. Elçin bu janrda yeni olsa da, "orijinal konflikt qurmaq ustalığı" sayəsində şedevr xəfiyyə romanı yarada bilmişdi. Ümumiyyətlə yazıçı, tarixi mövzuda da, roman janrında da, xəfiyyə ədəbiyyatında da eyni uğurla qələmini sınamışdır. "Ox kimi bıçaq" tərtəmiz klassik detektiv, kəskin süjetli kriminaldır. Janrın xronotopu gözlənilmişdir. Qayda-qanunu, tələbləri, xarakter xüsusiyyətləri, vacib elementləri ilə. Surət azdır, qatil göz önündə olanlardan biridir, həm də məharətlə maskalanıb. O vaxtın statistikasına görə, "Arxadan vurulan zərbə"nin baxış sayı 17 milyonu keçmişdi. Bu günlərdə povesti götürüb bir də oxudum. Üstündən yarım əsrə yaxın müddət keçməsinə baxmayaraq, təsir, həyəcan, silkələmə eynidir. Özü də keçmişdə oxuduğum deyil. Gedib-gəlib bu əsərə qayıdıram. Povestdə hadisələr keçmiş orqan əməkdaşı olan Mahmud Qəmərlinskinin müəmmalı qətli ilə başlayıb, elə onun ətrafında da cərəyan edir. Olur ki, oxucu cinayətkarı tanıyır, amma müəllif onu istintaqdan gizli saxlayır. Burada isə intriqa sona qədər davam edir, mühüm işlər müstəntiqi Gündüz Kərimbəyli ilə bərabər oxucu da, tamaşaçı da cinayəti araşdırır, hər şübhəli, ikibaşlı sözdə potensial qatil axtarır. Bu da, əsərin həyəcanını artırır. Povest həm də atmosferi ilə diqqəti çəkir. "Prokuror Dadaşlı çırthaçırtla yanan sobanın gözünü maşa ilə yerbəyer edib, ağır cüssəsini düzəltdi və ... dodaqaltı zümzümə edə-edə öz yazı mizinə yaxınlaşdı, çayı yarımçıq qalmış armudu stəkanı götürüb bir-iki qurtum içdi" [6, s.196]. Və ya... "Belə havanınkı odur ki, yaxşıca odun yandırıb oturasan qırağında. Mənimki bax, bu peçdi, kitabdı, bir də ki, bu yerlərin sakitliyi" [6, s.196]. Sanki yaş odunun ətrini də hiss edirsən, köhnə kitab qoxusunu da. "Balaca şahzadə"ni də bir də oxumaq keçir ürəyindən. Prokuror da interyerdə portretə bənzəyir... Ağır çəki də gözə batmır, qüdrətinə yaraşdığı üçün daşıya bilir... Dadaşlı qabariti ilə amerikalı həmkarı Niro Vulfu (Peks Stautun xəfiyyəsi) yada salır. Prokuror Dadaşlı kitab aşiqidirsə, Niro Vulf daha ekssentrikdir... 129 kiloqram çəkisi olan xəfiyyə üç kitabı birdən oxuyur... Bu nüanslar da janrın klassikası olub, nəqli gözəlləşdirir və qiraəti oxunaqlı edir, həm ovqat verib yormur.

Dramaturq – qəlbin mühəndisidir, deyirlər. İnsanı duymaq, hiss etmək baxımından. Tamaşanın müvəffəqiyyəti, əgər varsa, yazıçının yazı masasından başlayır. Aktyor oyunu, rejissor işi keyfiyyətli, səviyyəli mətnə söykənir. Pyes tamaşanın qarantı olub, əsas yükü üzərinə götürür. Elçin dramaturgiyaya "Poçt şöbəsində xəyal" tragikomediyası ilə debüt edib. O vaxt 1970-ci il idi və onun cəmi 25 yaşı var idi. Lakin pyes zəmanənin senzurasından keçmədi və yalnız yeni minillikdə səhnə üzü gördü. İlk pyesin "ayağı" ağır olsa da, yazıçı dramaturgiyada uzunmüddətli pauza götürsə də, "Poçt şöbəsində xəyal" gələcək "Elçin teatrı" üçün bir tramplin oldu. 90-ların sonlarında dramaturq "Ah, Paris, Paris!"lə başlayıb, bir-birinin ardınca tamaşaya qoyulan dramları ilə səhnəyə möhtəşəm qayıdış etdi. Ədilə həyatdan, dünənindən, bu günündən bezmiş, düşüncələri dolaşıq, azmış fikirlər içərisində özünə bir çıxış yolu axtaran qadındır. Hətta gündəlik iş yolundan da bezib, 12 dəqiqəlik məsafəni dövrə vurub bir saata qədər uzadır. Hər şey onu qıcıqlandırıb əsəblərinə toxunur. "Eyni küçə, eyni səki, eyni binalar; eyni tinlər, eyni tanış sifətlər; hər gün, hər gün..." [7, s.139]. Həssasdır... Xəlilin adamı hövsələdən çıxaran şitliyinə dözə bilməyib kobudluq etsə də, özünü toplayıb könlünü də alır. Çünki bu xasiyyəti ilə bədbəxt olduğunu anlayır. Daxilən üsyankardır. Özünün Gülyalı-Zulyalı keçmişindən ayrıldığı kimi, finalda Xəlilli bu günü ilə də vidalaşır. Çünki onun mənəviyyatsızlığından iyrənir. Çünki daha özünə xəyanət etmək istəmir. Necə deyərlər, heç vaxt gözləmə ki, kimsə səni xoşbəxt etsin. Özün özünü xoşbəxt et! Keçmişlə ipləri qırıb həyatını kardinal surətdə dəyiş. Və bu aqibət Ədilənin yerinə poçt şöbəsinə gələn Züleyxanı da gözləyir. Müəllif sürüşkən keçmişi olan bu qızları bataqlıqda qoymayacaq, bir-bir çəkib çıxaracaq. Əsərdən çıxan nəticə də budur. Yazıçı bu pyesini S.Sveyqin "Kristina Xoflener" romanına, Ədiləni də Kristinaya bənzədir. Sveyqin əsəri ilə daha sonra tanış olsa da. Hər iki qız poçt şöbəsində işləyir. Ada Bakıda, Kristina Avstriyanın əyalətində. Və onların arasındakı təəccüblü "mənəvi yaxınlığı" müəllif özü hiss edir və nədənsə mütəəssir olur...

İlyas və Elçin Əfəndiyevlərin yaradıcılığı oxşar və fərqli cəhətləri ilə də diqqəti cəlb edir. İkincidən başlayaq. Ata-oğulun sənət yolu başqa-başqadır. İ.Əfəndiyev lirik-romantik yazıçıdır, Elçin yox... Elçinin yaradıcılığına fəlsəfi düşüncə hakimdir, onun "əsərlərində ən xırda, gözəgörünməz obraz belə az və ya çox dərəcədə, öz dünya tutumunda filosofdur" (*İsa Həbibbəyli*). "Xəzərin suyu azalırdı, yəni bu o demək idi ki, məsələn, min ildən sonra aşağıdakı qayalar da dənizdən uzaqlaşacaqdı, amma bütün bunlar min ildən sonra olacaqdı, bu min ilin özündə isə, bir həmişəlik, bir əbədiyyət, daimilik vardı və bu daimiliyin müqabilində insan ömrü Məmmədağaya lap miskin göründü" [6, s.95]. İ.Əfəndiyev insan taleləri, xüsusilə qadın taleləri haqqında yazırdı. Onun qəhrəmanları öz hekayələrini özləri danışır, bunun məsuliyyətini də özləri daşıyırlar. Elçin isə obrazların psixologiyasını daxili monoloqları hesabına açır. Elçin nə qədər müasir idisə, "keçmiş həmişə İ.Əfəndiyevin içində idi". İndi oxşar cəhətlər... Bu, ilk baxışda, müqayisəyə gəlməyəni müqayisə etməyə bənzəsə də, ata Əfəndiyevlə oğul Əfəndiyevin yaradıcılığını "nələrsə birləşdirir" (Elçin). Bu da, Elçinin İ.Əfəndiyev fenomenindən bacarıqla bəhrələnməsindəndir. İ.Əfəndiyevin yazdığı hər pyes ölkənin baş teatrında – Akademik Milli Dram Teatrında tamaşa qoyulmuşdur. Bu baxımdan onunla rəqabət apara biləcək ikinci dramaturq məhz Elçindir. Elçin son 70 ildə İ.Əfəndiyevdən sonra yeganə dramaturqdur ki, 11 əsəri Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında oynanılmışdır. "İ.Əfəndiyev məktəbi"ni "Elçin teatrı" inamla davam etdirir. Estafetin nəsildən-nəslə ötürülməsi sayəsində Akademik Teatrda boşluq hiss olunmadı. Teatrlarda veteran tamaşaların yubileyini anşlaqla qeyd etmək kimi bir ənənə var. "Unuda bilmirəm" – neçənci dəfə, "Mənim sevimli dəlim" – bu qədər... Bu "neçə" yüzlərlə baxış sayı deməkdir (Tək Amalya Pənahova Nərmin obrazında 500 dəfə səhnəyə çıxmışdı). Ona görə "filmin yenisi, tamaşanın köhnəsi", – deyirlər. Tamaşa oynanıldıqca cilalanır. 3D nədir? Zövq almaq istəyirsənsə, teatra get...

Elçinlə İ.Əfəndiyevin daha bir ümumi cəhəti – əsərlərinin ideologiyadan kənar, qəhrəmanlarının "şüarçılıqdan, plakatçılıqdan" uzaq durmasıdır. Bir də... Qarabağ. "Qarabağ həm də ədəbiyyatımız" olub, hər iki Xalq yazıçımızın yaradıcılığında mühüm yer tutur, ən müxtəlif təzahürlərdə özünü ifadə edir. Burada soy-kök, "genlərin kədəri", vətəndaşlıq mövqeyi, yazıçı ağrı-acısı kimi faktorlar da sözünü deyir. Tənqidçi Yaşar Qarayev yazırdı: "Azərbaycan tarixi barədə yeddi "Qarabağnamə" var. Bütünlüklə, İ.Əfəndiyevin yaradıcılığını mən səkkizinci "Qarabağnamə" hesab edirəm" [8, s.387]. "Hökmdar və qızı" Qarabağın salnaməsidirsə, Elçinin "Qaçqınlar" silsiləsində "müharibə bir göz qırpımında qaçqına çevrilən qarabağlıların ağrılı taleyi şəklində iştirak edir" [2, s.14-15]. Görüşlərdə, müsahibələrdə hər iki sənətkara aran Qarabağın cənnəti Füzuli haqqında sual verilirdi. Elçin 1986-cı ildə, məlum hadisələrdən az əvvəl verdiyi müsahibədə deyir: "Nə vaxt gələcəyimi bilmirəm, amma qoy Füzuli camaatı bilsin ki, gəlib-gəlməməyimdən asılı olmayaraq, yurdumuzun o gözəl guşəsi həmişə mənim ürəyimdədir" [9, s.24]. Elçinin dinc vaxtlarda yazdığı əsərlərində tez-

tez Qarabağın, Şuşanın adı keçir, indi, hər şey başlayıb bitəndən sonra, həmin əsərləri oxumaq, zaman maşını ilə səyahət etməyə bənzəyir. "Parisdə avtomobil qəzası"nda hekayəsindəki Kərim müəllim "bir dəfə doqquz il bundan əvvəl on iki günlüyə Şuşa sanatoriyasına getmişdi". Poçt şöbəsində xəyal"da isə oxuyuruq: "Yox, yox, Şuşaya gedək... Cıdır düzünə... İstəyirsiniz İsa bulağına... Yox, Cıdır düzünə... qoy kəklikotunun iyi burnumuzu deşsin. Daşaltına baxarıq... Qoy gözlərimiz qaralsın... Biz uşaqlıqda həmişə yay ayları Şuşaya gedərdik" [7, s.157]. Dünyanın gərdişi elə döndü ki, 30 il o yerlərə gedə bilmədik, İlyas Əfəndiyev bu qubarla dünyadan köçdü.

## Nəticə / *Conclusion*

"Elçin Əfəndiyevin yazdıqlarını oxumaq, Azərbaycan xalqının ədəbiyyatını və tarixini oxumaqdır. Romançı Elçin İlyas oğlu Əfəndiyevi oxumaq Azərbaycan xalqını yaxından tanımaqdır" [16]. Şair-tərcüməçi Abdul Latif Benderoğlunun yazıçıya verdiyi bu tərifi oxuyanda göz önünə həm də, ata Əfəndiyevin xalq yaradıcılığından qidalanan, azərbaycançılıq ideyaları ilə aşıb-daşan böyük yaradıcılığı gəlir.

Ümummilli liderimiz Heydər Əliyev Elçinin yaradıcılığına yüksək qiymət vermiş, onun teatr üçün yazdığı əsərləri, kinossenarilərini xüsusi qeyd edərək, əhəmiyyətini vurğulamışdır. Yazıçının əsərlərinin ekran həyatı da uğurlu alınmışdır. "Baladadaşın ilk məhəbbəti", "Arxadan zərbə", "Bağ mövsümü", "Mahnı dağlarda qaldı" pyesinin əsasında yazdığı "Gözlə məni" və b. bədii filmlər hər göstəriləndə sevə-sevə baxdığımız ekran əsərlərdir.

Akademik Nizami Cəfərov yazır: "Həyatımızın hansı sahəsində boşluq varsa, Elçin müəllim həmişə o boşluğu görüb və çalışıb ki, o boşluq olmasın" [11, s.195]. Doğrudan da, Elçinin yaradıcılığı o qədər masştablı, rəngarəngdir ki, hər millətdən, hər yaşda olan oxucu intellektinə uyğun olub zövqünü oxşaya bilir. O, yaradıcılığı ən çox tədqiqata cəlb edilən yazıçımızdır. Orxan Pamuk, "Elçin oxuduğum iki Azərbaycan yazıçısından biridir", – deyir. Elçin üçün isə həmişə meyar, "hakim oxucudur". O, auditoriyasını yaxşı tanıyır, "nədən yazır yazsın, ona oxucularının arzu və düşüncələri prizmasından baxmağı bacarır" [13]. Bu da, əlbəttə ki, oxucuya hörmətin göstəricisi olmaqla, yazıçının da böyüklüyünü ifadə edir. "Onun oxucusu olmaq çətin olsa da..." (*Ç.Aytmatov*).

Bu gün Elçinin kitablarının ümumi tirajı 5 milyondan çoxdur. Onun yazıçı, alim, ictimai xadim kimi titullarını və mükafatlarını saymaqla bitməz. Lakin Elçinin Çingiz Aytmatov haqqında işlətdiyi sözü özünə də rahatlıqla şamil etmək olar. O, bu gün həmin mükafatların fövqündədir. "Sözümüzün bəy əfəndisi" – sevimli yazıçımız Elçin Əfəndiyevin "uzaq və yaxın keçmişimizin mənzərəsini canlandıran əsərləri" (*Heydər Əliyev*) ədəbiyyatımızın milli sərvəti olub onun gələcək nəsillərə "mənəvi vəsiyyətidir".

## Ədəbiyyat / *References*


1. Alışanlı, Ş. Sözün yaşamaq haqqı. Sabah, – 2022.
2. Axundova, E. Böyük yazıçının kiçik nəsri. "525-ci qəzet", 24 yanvar 2015.
3. Cəfərov, N. "Elçin. Yazıçının yaradıcılıq yolu"na ön söz. "Ədəbiyyat qəzeti", 14.08.2017.
4. Cəfərov, N. "Elçin: yazıçının yaradıcılıq yolu silsiləsindən – Bir görüşün tarixçəsi". "Ədəbiyyat qəzeti", 09.06.2017.
5. Elçin. Seçilmiş əsərləri, 1-ci c. – Bakı: Çinar-Çap, – 2005.
6. Elçin. Seçilmiş əsərləri, 2-ci c. – Bakı: Çinar-Çap, – 2005.
7. Elçin. Seçilmiş əsərləri, 3-cü c. – Bakı: Çinar-Çap, – 2005.
8. Elçin. Seçilmiş əsərləri, 5-ci c. – Bakı: Çinar-Çap, – 2005.
9. Elçin. Seçilmiş əsərləri, 10-cu c. – Bakı: Çinar-Çap, – 2005.
10. Elçin. Mahmut və Məryəm. – Kərkük: Yurd, – 2007.







11. Elçin. Nədir ömrün mənası. – Bakı: Təhsil, – 2013.
12. Məmmədli, R. El üçün yaşayıb yaradan insan. F.Köçərli adına Respublika Uşaq Kitabxanası, – 2013.
13. Milli Kitabxana. Bu həmin Elçindir. http://anl.az/down/Elçin(2)pdf


## Творческий путь Эльчина

**Дилара Адилгил**
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: adilova.@bk.ru

**Резюме.** В статье представлены сведения о приходе в литературу и творческих особенностях Эльчина, одного из главных представителей "шестидесятников". В статье раскрывается деятельность писателя, темы и жанры, а также проблемы, которые затрагивал. Отдельно обсуждаются рассказы и повести писателя, его творчество в театре и в кино. Особое место отводилось драматургической деятельности Эльчина. В статье ссылаются на цитаты ученых, избранные цитаты подкрепляют высказанные идеи. При этом также были обращены внимание на схожие моменты с отцом Эфендиевым. По мнению автора, модернизм является основной чертой творчества Эльчина и в этом отношении сохранил свою актуальность.
**Ключевые слова:** писатель, рассказ, театр, драма, персонаж